*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 116-126*

https://doi.org/10.62837/2025.10.116

**GÜNEL ƏLƏKBƏROVA,**
**ADU**
**Rəşid Behbudov küçəsi., 80**
**gunel_rahimova@mail.ru**

# SİM (SAĞLAMLIQ IMKANLARI MƏHDUD) UŞAQLARDA LÜĞƏT EHTIYATININ ZƏNGINLƏŞDIRILMƏSI METODIKASI

**Xülasə**

Müasir dövrdə şagirdlər gündəlik həyatlarında müxtəlif obyekt və hadisələrlə təmasda olur, yeni informasiya mənbələri ilə qarşılaşır, müxtəlif mətnlər oxuyur və ətraf mühitdən yeni leksik vahidləri mənimsəyirlər. Qloballaşma, elmi-texniki tərəqqi, informasiya texnologiyalarının inkişafı və təhsildə tətbiq olunan müasir metodoloji yanaşmalar şagirdlərin lüğət ehtiyatının davamlı şəkildə yenilənməsinə və genişlənməsinə şərait yaradır.

Azərbaycan dili təliminin məzmunu köklü dəyişikliklərə uğrayır. Bu dəyişikliklər təkcə fənnin strukturunda deyil, həm də tədris strategiyalarında özünü göstərir. Dilin bütün komponentləri – fonetika, leksika, qrammatika və digər sahələr kimi, leksik baza da dərin elmi-metodiki yanaşma tələb edir. Lüğət ehtiyatının zənginləşdirilməsi, şagirdlərin söz sərvətinin artırılması ümumi nitq bacarıqlarının inkişafında, düşüncə çevikliyinin formalaşmasında mühüm rol oynayır. Bu baxımdan sağlamlıq imkanları məhdud uşaqlarda söz ehtiyatının artırılması metodikası dil təliminin mühüm istiqamətlərindən birini təşkil edir.

Leksik inkişafla bağlı aparılan tədqiqatlar göstərir ki, məktəblilərin düzgün və zəngin nitq qurması yalnız onların mütaliə vərdişlərindən deyil, həm də müəllimin tətbiq etdiyi metodlardan, dərsliyin strukturundan, istifadə olunan vəsaitlərdən və mətnlərin leksik səviyyəsindən asılıdır. Bu kontekstdə lüğət işi təkcə söz mənalarının öyrədilməsi deyil, həm də şagirdlərin dilə estetik və funksional yanaşmasını formalaşdıran mühüm bir komponent kimi çıxış edir. Araşdırmada siniflər üzrə lüğət işi metodikası, onların kurikulumla uyğunlaşdırılması, eləcə də təlim nəticələrinin gerçəkləşdirilməsi yolları nəzərdən keçirilmişdir. Azərbaycan dili dərslərində lüğət işinin rolu və əhəmiyyəti ilə bağlı nəzəri əsasların təqdim olunmuşdur.

Lüğət üzərində aparılan işlər geniş və çoxaspektli olduğundan, bu sahənin hərtərəfli və məqsədyönlü şəkildə təşkili asan məsələ deyil. Müəyyən bir sinifdə təhsil alan şagirdin söz ehtiyatı konkret və dəqiq şəkildə müəyyənləşdirilmədikdə, bu ehtiyatın inkişaf istiqamətlərini planlaşdırmaq da çətinlik yaradır. Digər tərəfdən, şagirdin leksik bazasını zənginləşdirə biləcək mənbələrin çoxluğu onların sistemli şəkildə tətbiqinə əngəl törədir

**Açar sözlər: söz ehtiyatı, SİM uşaqlar, lüğət, metodika**

Rabitəli nitq nitqin bir forması olub insanların fikir və düşüncələrinin məntiqi, ardıcıl və qrammatik cəhətdən düzgün formada ifadə etməyini təmin edir. Nitqin əsas məqsədlərindən biri olan ünsiyyətin effektivliyi və dilin struktur elementlərinin düzgün istifadəsini rabitəli nitq tələb edir. Dilin üç norması-fonetik, leksik, qrammatik şifahi və yazılı nitqdə öz əksini tapmalıdır.

Rabitəli nitqin inkişafı üçün nitq vərdişlərinə, geniş leksik bazaya, düzgün qrammatik quruluşa malik olmaq lazımdır. Bu bacarıqları şagirdlərdə formalaşdırmaq üçün bəzi üsullardan istfadə edə bilərik: Mətnlər üzərində işləmək və təhlil etmək, yenidən nəql emək, xülasə hazırlamaq, söz ehtiyatının zənginləşdirilməsi, diskussiya və debatlara qoşulmaq.

Azərbaycan dilinin əsasını təşkil edən leksik bazaya nitq prosesində istifadə olunan bütün sözlər və frazeoloji vahidlər daxildir. Lüğət tərkibini sadəcə söz yığını kimi dəyərləndirərək şərh edilməməlidir, mürəkkəb sistem kimi yanaşılmalıdır *[4, s. 11].*

Ora məktəb müəllimləri şagirdlərin rabitəli nitqinin inkişafı prosesində nitqi dəyərləndirmək üçün müəyyən edilmiş meyarlara müraciət etməlidir. M. R. Lvovun tədqiqatlarında bu meyarların nitq üçün tələblərini aşağıdakı kimi əks olunur:

1. Nitqin mənalılığı - şagirdin ifadəsi real təcrübəyə ve şəxsi biliyə əsaslanmalıdır;

2. Nitqin məntiqiliyi nitqin ardıcıllığı, nöqsanların ve ziddiyyətlərin olmaması, məzmunda məntiqlə qurulmuş nəticələrin olması, yəni təkcə hekayəyə başlamaq deyil, həm də ifadəni tamamlamaq bacarığı;

3. Nitqin dəqiqliyi şagirdin bu cür nitqi seçmək bacarığı, reallığı, dəqiqliyi ilə çatdırılması. Bura nitq tərzi və onun ifadəliliyi, jestlər, emosiyalar, natiqə inanmağa vadar edən hər şey daxildir;

4. Nitqin zənginliyi müxtəlif linqvistik vasitələrin müxtəlifliyi, müxtəlif vəziyyətlərdə məzmunu ən yaxşı şəkildə çatdıran uyğun gələn cümlə strukturlarını seçmək bacarığı, söz ehtiyatı ve onlarla işləmək bacarığı, bu sözlərin leksik mənasını bilmək;

5. Nitqin aydınlığı onun dinləyici ve oxucu üçün əlçatanlığı, onun dinləyicinin qavrayışına yönəldilməsi, düzgün diksiya və tələffüz, deyilənlərin mahiyyətini çatdıran intonasiyaya malik olmaq;

6. Nitqin ifadəliliyi yorucu sözlər olmayan parlaq, gözəl, inandırıcı nitqin mənimsənilməsi;

7. Nitqin düzgünlüyü onun ədəbi normaya uyğun varlığıdır.

Söz seçimi və ifadənin məntiqi nitqin düzgünlüyü üçün böyük əhəmiyyət kəsb edir. Söz dilin əsas məna vahididir. Hər bir fərdin leksik bazası nə qədər zəngindirsə, fikirlərini ifadə edərkən daha ayddın, düzgün, mənaya uyğun sözləri seçərək nitqini qüsursuz edir. Bu səbəbdən təhsilalanların şifahi nitqini inkişaf etdirərkən lüğət

ehtiyatının zənginləşdirilməsi məsələsinə xüsusi diqqətlə yanaşılmalıdır. SIM uşaqlarda üzrə lüğət işinin formalaşdırılması metodikasında aşağıdakı istiqamətlər əsas götürülür:

-Təhsilalanların leksik bazasının yeni sözlərlə və onlara artıq məlum olan passiv sözlərin mənaları ilə zənginləşdirmək;

-Lüğətin aydınlaşdırılması, yəni nitqdə işlədilən sözlərin mənalarını dəqiqləşdirilməsi prosesidir. Kontekst daxilində verilən sinonim və antonimlərin izahı, çətin başadüşülən sözlərin mənasının verilməsi, tərif və izahların təqdim olunması, vizual və audial nümunələrdən istifadə edərək passiv lüğət ehtiyatı genişləndirilir və sözlərin leksik-semantik xüsusiyyətlərinin şagirdlər tərəfindən daha aydın dərk edilməsinə kömək edir.

-Lüğətin aktivləşdirilməsi, fərdin nitqində yeni sözlərin istifadəsini təmin olunmasına yönəldilmiş prosesdir. Bununla da passiv söz ehtiyatı aktivləşdirilərək nitqin inkişafını təşkil edir. Aktiv lüğət bazasını formalaşdırmaq üçün məqsədyönlü nitq praktikasından, yeni sözlər hesabına məqalələr, mətnlər yazmaqdan, müzakirə və debatlar apararaq sözlərin praktik olaraq tətbiqindən, assosiyasiya oyunları, tapşırıqların yerinə yetirilməsindən, hər bir sözün bir neçə kontekstdə işlədilməsindən istifadə edilə bilər.

-Qeyri-ədəbi sözlərin ləğv edilməsi. Qeyri-ədəbi sözlər , əsasən, vulqar ifadələr, dialektizmlər, parazit sözlərdən ibarət olur. Rabitəli nitqin inkişafı, ünsiyyətin düzgün qurulması üçün bu tip sözlərin nitqdən çıxarılması və ya minimuma endirilməsi zəruridir.

-İfadələr və cümlələr üzərində işin qurulması. Nitqin rabitəliliyini təmin etmək üçün sözlərin uyğun kontekstdə işlədilməsi, fikirlərin bir-birilə bağlı olmasını, sadə və mürəkkəb cümlələrdən balanslı istifadə edilir. Çox uzun və dolaşıq cümlələrdən qaçmaq, həddindən artıq lakonikliyin qarşısını almaq lazımdır. Nitqin ardıcıllığını planlaşdıraraq giriş, əsas və nəticəni xüsusi vurğulamaq lazımdır.

Beləliklə, şagirdlərin nitqinin aydın, məntiqli və ədəbi çərçivədə formalaşmasını təmin etmək mümkündür. Bu proseslərin sistemli tətbiqi nitqin zənginliyini artırır, məntiqi axıcılığını , ünsiyyətin effektivliyini təmin edir. Rabitəli nitqin inkişafı ilə yanaşı şagirdlərin ifadə tərzi də yüksək səviyyəyə çatır.

Rabitəli nitqin formalaşmasında leksik bazanın əsas funksiyalarından biri informasiyanı sözlər vasitəsilə düzgün ötürülməsidir. Sözlər dəqiq şəkildə, kontekstə uyğun olaraq dinləyiciyə çatdırılmalıdır.

Leksik bazanın funksiyalarından biri də səbəb-nəticə əlaqələrinin qurulmasına, müqayisə strukturlarının formalaşmasına, abstrakt anlayışların ifadələrin nitqdə işlədilməsinə kömək edən koqnitiv, yəni idrakidir. Məntiqi və tənqidi təfəkkürün inkişafında və bunun rabitəli nitqdə əks olunmasında koqnitiv funksiyanın rolu əvəzedilməzdir.

Praqmatik funksiya ilə nitqin müxtəlif məqsədlərinə - xahiş, arzu, istək, əmr, razı salma və sairə uyğun sözlərin seçilərək istifadə edilməsidir.

Leksik bazanın inkişafı və rabitəli ünsiyyətin keyfiyyətində mediada yaranan yeni və xarici sözlərin təsiri danılmazdır.

Beləliklə, leksik baza yalnız sözlər toplusu deyil, dinamik və dəyişkən sistemdir, rabitəli ünsiyyəti təmin etmək üçün düzgün istifadə etmək lazımdır. Adi danışıq dilindən elmi müzakirələrədək bütün prosesdə leksik bazanın müxtəlifliyi nitqin keyfiyyətinin artmasında rol oynayır.

Araşdırmalar göstərir ki, şagirdlərin oxuma və dinləmə prosesində istifadə olunan söz ehtiyatı yazı və danışma zamanı istifadə olunan söz ehtiyatından daha genişdir. Göstərilir ki, uşağın mənasını bildiyi söz ilə gündəlik həyatında aktiv şəkildə istifadə etdiyi söz arasında böyük fərq mövcuddur. Lakin bu dörd bacarığın hər birinin təməlində zəngin söz ehtiyatı dayanır.

Lüğət ehtiyatının zənginləşdirilməsi yazılı nitqin inkişafı üçün əsas şərtlərdən biridir. Bu proses aşağıdakı yollarla həyata keçirilə bilər:

Müxtəlif mənbələrdən oxumaq – Bədii, elmi, publisistik və rəsmi üslubda yazılmış məqalələr oxumaq lüğət ehtiyatını genişləndirir. Müxtəlif mətn janrları fərqli lüğət bazası tələb etdiyindən, onların oxunması söz ehtiyatının inkişafına kömək edir.

Yeni sözləri kontekstdə öyrənmək – Yeni öyrənilən sözlərin məna çalarlarını başa düşmək üçün onları kontekstdə istifadə etmək vacibdir. Təkcə sözün lüğəvi mənasını bilmək kifayət deyil; onu düzgün işlədə bilmək yazılı nitqin keyfiyyətini artırır.

Söz dəftəri tutmaq – Yeni sözləri qeydə almaq və onların cümlələrdə istifadəsini yazmaq yadda qalmasına kömək edir.

Yaradıcı yazı bacararıqlarını formalaşdırmaq üçün istifadə olunan metodlardan biri *Salxım* metodur. Bu söz ingilis dilindəki " cluster, clustering" sözündən götürülmüşdür, bir yerə toplamaq, qruplaşdırmaq, salxım halına gətirmək mənasını ifadə edir. Bu metoddan ilk dəfə 1985-ci ildə Gabriele Rico tərəfindən istifadə olunmuşdur. Bəs salxım metodu nədir?

Salxım metodu bir açar sözdən yola çıxaraq o mənanın ifadə etdiyi yeni sözlərin bir-birilə əlaqəındiyi, sadədən mürəkkəbə doğru, sözdən mətnə çevrilən, məntiqi bacarıqlarından maksimum istifadəsini təmin edən yazı texnologiyasıdır. Burada mərkəzdə əsas söz yerləşdirilir, bu sözün ətrafında onunla əlaqəli digər sözlər yazılaraq formalaşan metoddur. Bu sözlər arasındakı əlaqəni göstərmək üçün oxlar, dairələr və cızıqlardan istifadə edilir.

Salxım metodu şagirdlərin sahib olduğu məlumatlar ilə yeni öyrəndikləri informasiyalar arasında, mərkəzdəki ifadənin hissələri arasında əlaqə yaradır. Bu metod vasitəsilə təhsilalanlar bir dərsin, kitabın əsas fikrini ifadə etmək üçün mərkəzə yazılan sözlə və əlaqəli sözlər əsasında kiçik yaradıcı yazı yazmaq

mümkündür. Salxım metodu mərkəzdən başlayaraq ətrafında toplaşmış sözlərin hər biri ilə, açar sözlərlə əhatələnən sistem şəklində təşkil olunur. Yaranmış forma şagirdlərin mövzu ilə bağlı məlumatları qavramasına və müəllimin məlumatdakı boşluqları asanlıqla təyin etməsinə şərait yaradır. Təhsilalanlar bu sxemdən nəticə çıxara bilər, daha çox tədqiqat üçün suallar təərtib edə bilərlər. Bu metod öyrənənlərin ilkin biliklərini formalaşdırmaqla yanaşı, motivasiya yaratmağa xidmət edir.

Kinestetik zəka tipinə malik təhsilalanlar yazı metodlarında çətinlik çəkə bilərlər və bu vəziyyət öyrənməyi əngəlləyən səbəblərə gətirib çıxara bilər. Lakin salxım metodu elə bir üsuldur ki, bu müxtəlif zəka tipli şagirdərin öyrənməsini də təmin edir. Şagirdlər ilk mərhələdə müşahidə edirlər, mərkəzə yazılacaq açar sözləri müəyyənləşdirirlər. Əsas sözlə bağlı ağıllarında formalaşan sözləri açar sözün ətrafında yazırlar. İkinci mərhələdə isə planlaşdırma edilir. Artıq yazılmış sözlər və onlar arasındakı əlaqəni düşünərək cümlələr qurmağa başlanılır. Sonuncu mərhələdə şagirdlər yazılan cümlələri müəyyən ardıcıllıqla düzərək mətni formalaşdırırlar.

Təhsilalanların yazılı və şifahi nitqini inkişaf etdirmək dövlətimizin qabaqcıl təhsil strategiyalarından biridir. Təbiidir ki, nitqin inkişafı, fikirlərini ifadə etməyi bacarmaq üçün şagirdlərin lüğət ehtiyatı zəngin olmalıdır.

Şagirdlərin lüğət ehtiyatının ailə, məişət və cəmiyyət səviyyəsində genişlənməsi təbii bir prosesin tərkib hissəsidir. Əgər bu prosesə diqqətlə yanaşsaq, görərik ki, nitq inkişafının vacib elementi kimi lüğət ehtiyatının zənginləşdirilməsi əsasən qeyri-sistemli şəkildə baş verir. Məktəb mühitində isə bu proses kortəbii olmamalı, müəyyən metodoloji yanaşmalar əsasında sistemli şəkildə həyata keçirilməlidir. Bundan əlavə, dialektal təsirlərin azaldılması və şagirdlərin lüğət ehtiyatının normativ leksika ilə zənginləşdirilməsi də əsas məqsədlərdən biridir.

Əgər şagird bir sözün mənasını bilmirsə, onun düzgün yazılışını necə yadda saxlaya bilər? Mətndə istifadə edilən bir sözün mənası şagirdə məlum deyilsə, həmin mətn üzərində aparılan təhlilin nə qədər effektiv olduğu şübhə altına düşür. Bu səbəbdən lüğət üzərində işin düzgün aparılması şagirdin nitq inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Oxu, xüsusən sinifdəki oxuma fəaliyyətləri, şagirdlərin söz ehtiyatını zənginləşdirməkdə mühüm rol oynayır. Şagirdlərdə mütaliə sevgisini oyatmaq və oxuma həvəsini artırmaq vacibdir. Onlara kitab seçərkən düzgün istiqamət vermək və kömək etmək lazımdır. Kitablarla işin müxtəlif formalarına, məsələn, bədii ədəbiyyat nümunələrini, uşaq yaşına uyğun akademik ədəbiyyatı həm fərdi, həm də kollektiv şəkildə oxumağa, oxunmuş əsərləri müzakirə etməyə, ədəbi gecələr və oxucu konfransları təşkil etməyə, yazıçı və şairlərlə görüşlər keçirməyə diqqət yetirilməlidir.

Lüğət repetisiyası üçün sözlər seçərkən, nitqdəki sözlərin əhəmiyyəti və funksionallığına diqqət yetirilməlidir. Ən çox, repetisiyalar mətndəki konkret sözlər

üzərində qurulur. Lakin, məşqdən sonra ifadələr, idiomatik frazalar və tam mətnlərə də yer verilməlidir.

Təlimlər müxtəlif söz və ifadələr üzərində aparıldığında, müəllim daha çox qrammatika və orfoqrafiya bacarıqları üzərində az vaxt sərf edərək daha effektiv öyrənmə təmin edə bilər.

Şagirdlər, sözlərin düzgün yazılışını möhkəmləndirməkdən əlavə, müxtəlif qaydalara uyğun olaraq bu bacarıqları inkişaf etdirəcəklər: sözün mənası və tətbiq sahəsi izah edilir; sözün strukturu və hərfləri təhlil olunur; morfemlər və köməkçi feillər əlavə edərək yeni sözlər yaradılır; xüsusiyyətlərinə görə uyğun gələn sözlər tapılır; müxtəlif formalar yaratmaq üçün sözlər dəyişdirilir; sözlər müəyyən işarələrə ayıran məşqlər edilir; bir sözü digər bir sözlə əvəz etmək; mətndən konkret sözləri tapmaq; sözlərin mənasını və formasını qarışdırmamağa diqqət yetirmək; öyrənilən sözlərdən və obrazlı ifadələrdən cümlələr qurmaq.

Xüsusi qayğıya ehtiyac olunan şagirdlərin nitq bacarıqlarının, təfəkkür səviyyəsinin və lüğət ehtiyatının inkişafında bütün tədris fənlərinin özünəməxsus rolu vardır. Lakin bu baxımdan Azərbaycan dili və ədəbiyyat dərsləri xüsusi əhəmiyyət daşıyır və burada şagirdlərin nitqinin inkişafı prioritet istiqamət kimi qiymətləndirilməlidir. Gələcəkdə Azərbaycan dili tədrisinin səmərəliliyinin artırılması üçün bu fənnin həm nəzəri, həm də praktik aspektlərinin daha da təkmilləşdirilməsi vacibdir. Lüğət ehtiyatının zənginləşdirilməsi çoxşaxəli, sistemli və davamlı bir prosesdir. Bu istiqamətdə elmi yanaşmalar, tədris metodikası və müasir texnologiyaların vəhdəti əsasında təşkil edilən praktiki tədbirlər şagirdlərin nitq qabiliyyətinin inkişafında mühüm rol oynayır. Müəllimlərin bu sahədə yaradıcı yanaşmaları və ardıcıl fəaliyyəti isə prosesin uğurla nəticələnməsinin əsas şərtidir.

Vizual və texnoloji vasitələrdən istifadə- Şəkilli lüğətlər – sözlərin şəkillərlə birlikdə təqdim olunması;

Interaktiv oyunlar – "Söz tap", "Hansı söz artıqdır?", "Əksini tap" tipli oyunlar;

Multimedia təqdimatları – PowerPoint slaydlar, videolar və qrafiklər vasitəsilə sözlərin təqdimatı;

Elektron platformalar – Quizlet, Kahoot, Wordwall kimi vasitələrdə interaktiv təkrarlar.

5. Yaradıcı yazı və şifahi nitq məşqləri- Şagirdlərin sözləri yalnız tanımaları deyil, onları aktiv istifadəyə cəlb etmələri də vacibdir. Bu məqsədlə:

Təsvir xarakterli inşa yazıları (Məsələn: "Mənim sevimli fəsilim");

Hekayə tamamlama tapşırıqları (verilən başlanğıc əsasında);

Dialoq qurma məşqləri (iki personaj arasında danışıq);

Debat və müzakirələr (Məsələn: "Texnologiya təhsilə mane olur, yoxsa dəstək verir?").

6. Ailə və mühit amili- Şagirdin məktəbdən kənarda da zəngin dil mühiti ilə qarşılaşması əhəmiyyətlidir. Buna görə:

Valideynlər övladları ilə müxtəlif mövzularda söhbət etməli;

Kitab oxumağa təşviq edilməli;

Dil bacarıqlarını inkişaf etdirən filmlər, cizgi filmləri, sənədli verilişlər izlətdirilməlidir.

7. Lüğət dəftəri və söz bankı- Hər bir şagirdin fərdi "lüğət dəftəri" və ya "söz bankı" olmalıdır. Buraya yeni öyrəndiyi sözləri yazmalı, onların mənasını, cümlə içində işlənməsini və sinonimlərini qeyd etməlidir. Bu metodik yanaşma yaddaşın aktivləşdirilməsi baxımından olduqca effektlidir.

Müasir təhsil mühitində fərdi yanaşma, inklüzivlik və bərabər imkanların yaradılması kimi prinsiplər aparıcı mövqeyə sahibdir. Bu baxımdan, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi ilə bağlı aparılan fəaliyyətlər də təlimin bu prinsiplərinə uyğunlaşdırılmalı, xüsusən inklüziv və fərqləndirilmiş təhsil şəraitində çalışan şagirdlərin ehtiyac və imkanları nəzərə alınmalıdır.

Əvvəlki bölmələrdə qeyd olunduğu kimi, lüğət ehtiyatının formalaşdırılması və inkişafı sistemli, məqsədyönlü və şagird yönümlü yanaşma tələb edir. Bu yanaşma xüsusilə müxtəlif öyrənmə imkanlarına, qabiliyyətlərinə və sosial-emosional xüsusiyyətlərinə malik olan şagirdlər üçün daha böyük aktuallıq kəsb edir. İnklüziv təlim mühitində lüğət işi təkcə bilik ötürmək deyil, eyni zamanda bu biliklərin mənimsənilməsini asanlaşdırmaq və fərdi inkişafı dəstəkləmək məqsədi daşımalıdır. İnklüziv siniflərdə təhsil alan şagirdlərin lüğət ehtiyatının artırılması üçün müəllimlər:

Şagirdlərin mövcud lüğət ehtiyatını diaqnostika etməli, zəif və güclü tərəfləri müəyyənləşdirməli;

Dərslik materiallarını fərdiləşdirməli, çətin sözləri izah etməli, sadə və aydın təlimatlarla müşayiət etməli;

Vizual və eşitmə materiallarından geniş istifadə etməlidir. Şəkilli lüğətlər, səsli mətnlər, qrafik nümayişlər;

Sadədən mürəkkəbə doğru prinsipini tətbiq etməli, qavraması çətin olan sözləri kontekstə əsaslanaraq izah etməlidirlər.

Məsələn, eşitmə qüsuru olan bir şagird üçün sözlərin tələffüzü deyil, onların yazılı forması və məna əlaqəsi daha ön plandadır. Bu halda müəllim ona vizual dəstəkli materiallar, animasiyalar və jestlər vasitəsilə sözü daha anlaşıqlı edə bilər. Digər tərəfdən, diqqət pozuntusu olan və ya təlimdə motivasiya problemi yaşayan şagirdlər üçün lüğət işi maraqlı oyunlarla, interaktiv platformalarla birləşdirilməlidir.

Fərqləndirilmiş təlim şəraitində müəllimin diqqət yetirməli olduğu məsələlər göstərilmişdir:

Şagirdlərin yaş səviyyəsi, biliyi və maraqlarına uyğun söz seçimi etməli;

Tapşırıqları fərqli çətinlik dərəcəsində təqdim etməli;

Eyni məqsədə xidmət edən alternativ yollar təklif etməlidir. Məsələn, bir şagird sözlə bağlı esse yazarkən, digəri həmin sözə aid şəkil çəksin, üçüncüsü isə onu cümlədə işlədə bilər.

Aşağıdakı praktik tədbirlər nümunəsinə nəzər yetirək:

Səviyyələndirilmiş lüğət kartları: Eyni mövzuya aid sözlər 3 səviyyəyə bölünür – əsas, orta və yüksək səviyyəli sözlər. Hər şagirdə uyğun səviyyədə tapşırıq təqdim olunur.

Lüğət bucağı: Sinifdə inklüziv şagirdlərin qavrama tempinə uyğun şəkildə vizual materiallardan ibarət "söz bucağı" yaradılır.

Şəxsi lüğət dəftərləri: Şagirdlər fərdi şəkildə yeni öyrəndikləri sözləri öz dəftərlərinə yazır, cümlə qurur və rəsmlə müşayiət edirlər.

"Sözlə danış" oyunu: Hər şagirdə bir söz verilir, onu miminq və ya təsvir vasitəsilə izah edərək digər şagirdlərin həmin sözü tapmasını təmin edir.

Bu yanaşmalar inklüziv və fərqləndirilmiş tədris şəraitində lüğət öyrənməsini daha effektiv, cəlbedici və məqsədyönlü edir. Eyni zamanda, şagirdlər arasında əməkdaşlıq və qarşılıqlı öyrənmə mühiti formalaşır.

Nəticə etibarilə, inklüziyaya əsaslanan lüğət işi yalnız bilik ötürməyə deyil, eyni zamanda empatiya, qarşılıqlı anlaşma və sosial inkişaf kimi mühüm komponentlərin formalaşmasına xidmət edir. Bu isə müasir təhsilin əsas məqsədlərindən biridir.

Azərbaycan dili dərslərində lüğət ehtiyatının zənginləşdirilməsi məqsədilə tətbiq olunan effektiv üsul və metodlar, şagirdlərin dil bacarıqlarını inkişaf etdirmək üçün vacib alətlərdən biridir. Bu dərslərdə ənənəvi təlim üsullarının yanında, inklüziv və fərqləndirilmiş təlim yanaşmaları da böyük rol oynayır. Müasir təhsil mühitində şagirdlərin müxtəlif ehtiyaclarına, qabiliyyətlərinə və öyrənmə tempinə uyğunlaşdırılmış tədris metodları lüğət işinin daha da dərinləşdirilməsinə, şagirdlərin dil və nitq bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Bu bölmədə qeyd olunduğu kimi, inklüziv təlim mühitində şagirdlərə fərdi yanaşmanın əhəmiyyəti vurğulanmış, hər bir şagirdin tədris prosesində aktiv iştirakını təmin edəcək müxtəlif metodlar və tədris vasitələri təqdim edilmişdir. Belə yanaşmalar şagirdlərin lüğət ehtiyatını yalnız dil bilikləri ilə deyil, həm də sosial-emosional və psixoloji inkişafları ilə əlaqələndirir.

Sinifdəki inklüziv mühit, müxtəlif ehtiyaclara malik şagirdlər üçün tətbiq olunan metodlar və təlim materialları ilə mütərəqqi lüğət işinin əsasını təşkil edir. Bu yanaşma, şagirdlərin lüğət biliklərini yalnız nəzəri şəkildə deyil, həm də praktik olaraq tətbiq etmələrini təmin edir. Beləliklə, Azərbaycan dili dərslərində lüğət ehtiyatının zənginləşdirilməsi, yalnız şagirdlərin leksik məlumatlarını artırmaqla kifayətlənmir, həm də onların kommunikativ bacarıqlarını, kritik düşünmə qabiliyyətlərini və yaradıcılıq potensialını inkişaf etdirir.

Tədris prosesində tətbiq olunan metodlar və üsullar, şagirdlərin təhsil həyatında daha da inkişaf etmələri, müxtəlif situasiyalarda dil bacarıqlarını səmərəli istifadə

etmələri üçün zəruri olan təməl bilik və bacarıqları təmin edir. Bu yanaşmalar, xüsusən də inklüziv və fərqləndirilmiş təlim şəraitində, lüğət ehtiyatının inkişafını mümkün edən praktiki tədbirlər vasitəsilə şagirdlərin daha dərindən mənimsədikləri biliklərə çevrilir.

Tədris prosesində istifadə olunan "Qlossari", "Söz boğçası", "Diqqət et" kimi rubrikalar, sözlük işinin təşkilinə yönəlik tapşırıqlar, mətnlə bağlı semantik təhlillər, assosiativ və kontekstual izahlar bu prosesin sistemli şəkildə qurulmasına xidmət edir. Əldə edilən nəticələr göstərir ki, bu yanaşmalar şagirdlərdə həm leksik bazanı, həm də məntiqi və dil analizini gücləndirir.

Aparılan eksperimentlər və müşahidələr sübut edir ki, şagirdlərin lüğət ehtiyatının inkişafı yalnız ayrı-ayrı dərs mövzuları çərçivəsində deyil, ilboyu planlı və məqsədyönlü şəkildə təşkil olunmalıdır. Bu zaman şagirdlərin yaş səviyyəsi, dil bacarığı və maraqları nəzərə alınaraq fərqləndirilmiş yanaşmalar tətbiq olunmalı, inklüziv təhsil şəraitində isə fərdi ehtiyaclara uyğun dəstək göstərilməlidir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abdullayev A. "Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası", Bakı: Maarif, 1976, 280 s.
2. Abdullayev A. "Azərbaycan dilinin tədrisi metodikasının formalaşması", Bakı: Elm və təhsil, 2011, 209 s.
3. Cəfərov Q.H. "Azərbaycan dilinin leksik-semantik sistemi", Bakı: Elm, 1984, 124 s.
4. Cəfərov S. "Müasir Azərbaycan dili", II hissə, Leksika, Bakı: Şərq-Qərb, 2007, 192 s.
5. Cəfərova Nabat "İbtidai siniflərdə AZərbaycan dilinin tədrisi metodikası. 1, 2-ci hissə, Bakı 2016

**Gunel Alakberova**

## SUMMARY

## METHODOLOGY FOR ENRİCHİNG THE VOCABULARY OF CHİLDREN WİTH LİMİTED HEALTH CAPACİTİEs (LHC)

In the modern era, students encounter various objects and events in their daily lives, use new sources of information, read different texts, and acquire numerous lexical units from their environment. Globalization, scientific and technological progress, the development of information technologies, and contemporary methodological approaches in education contribute to the continuous renewal and expansion of students vocabulary. Recent reforms in Azerbaijani language teaching have affected not only the structure of the subject but also its instructional strategies.

Just like phonetics, lexicon, grammar, and other components of language, the lexical base requires a deep scientific and methodological approach. Enriching students' vocabulary plays a significant role in developing general speech skills, as well as shaping logical and creative thinking. From this perspective, the methodology for expanding the vocabulary of children with limited health capacities is of particular importance. Research on lexical development shows that students' ability to construct coherent and rich speech depends not only on their reading habits but also on the methods used by the teacher, the structure of textbooks, instructional materials, and the lexical level of texts presented to them. In this context, vocabulary work is not only the teaching of word meanings but also a key instructional component that shapes students' aesthetic, functional, and communicative perception of language. This study examines vocabulary teaching methods across grade levels, their alignment with curriculum standards, and ways to achieve expected learning outcomes. The theoretical foundations of vocabulary work in Azerbaijani language classes are also presented.

**Keywords: vocabulary, LHC children, lexicon, methodology, lexical development**

**Резюме**

**Методика обогащения словарного запаса детей с ограниченными возможностями здоровья (ОВЗ)**

В современную эпоху учащиеся ежедневно сталкиваются с различными объектами и явлениями, пользуются новыми источниками информации, читают разнообразные тексты и усваивают новые лексические единицы из окружающей среды. Глобализация, научно-технический прогресс, развитие информационных технологий и современные методологические подходы в образовании создают условия для постоянного обновления и расширения словарного запаса школьников.

Содержание обучения азербайджанскому языку претерпевает значительные изменения. Эти изменения отражаются не только в структуре предмета, но и в стратегиях преподавания. Как фонетика, лексика и грамматика, так и лексическая база требуют глубокого научно-методического подхода. Обогащение словарного запаса учащихся, развитие их словарного фонда играет важную роль в формировании речевых навыков, а также гибкости и логичности мышления. В этом контексте методика увеличения словарного запаса детей с ограниченными возможностями здоровья является одним из важнейших направлений обучения языку.

Исследования, посвящённые лексическому развитию, показывают, что формирование правильной, богатой и последовательной речи у школьников зависит не только от их читательских навыков, но и от методов, применяемых учителем, структуры учебников, используемых пособий и лексического уровня

представленных текстов. В данной работе рассматриваются методика словарной работы по классам, её согласование с требованиями учебной программы, а также пути достижения ожидаемых результатов обучения. Представлены теоретические основы роли и значения словарной работы на уроках азербайджанского языка.

Поскольку словарная работа является широкой и многоаспектной сферой, её целенаправленная и системная организация требует тщательного подхода. Если словарный запас учащегося конкретного класса не определён точно, становится сложно планировать направления его развития. Кроме того, многообразие источников, способных обогатить словарный фонд школьников, затрудняет их системное применение.

**Ключевые слова: словарный запас, дети с ОВЗ, лексика, методика.**

**Rəyçi: dos. Y.Hacıyeva**